Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

# Böyük Qarabağ Zəfəri elmi, mədəni, təhsil proqramlarına geniş perspektiv açdı...

**Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra yeni tarixə, həyata qədəm qoyub. Cəbhədə döyüşlər bitsə də, informasiya müharibəsində mübarizə sonadək davam edəcək. Bunun üçün cəmiyyətimiz daha da savadlanmalı və hərtərəfli informasiya ilə əhatələnməlidir. Əlbəttə ki, bütün bunlara nail olmaq üçün isə elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının inkişaf etdirilməsinə, yenilərinin hazırlanmasına böyük ehtiyac var.**



Düzdür, Vətən müharibəsindən ötən bir il ərzində xeyli toplular nəşr olunub. Bu istiqamətdə xeyli tədbirlər keçirilib, bundan sonra da davam edəcək. Təbii ki, müharibənin nəticələri rəsmiləşdirildikdən və sülh müqaviləsi bağlandıqdan sonra bu işlər sistemli şəkildə davam etdiriləcəyinə şübhə yoxdur. Artıq müharibə ilə bağlı mövzular dərsliklərə salınıb ki, bu da gənclərimizin yeni tarixini öyrənməsində mühüm rol oynayır. Bundan başqa, qəhrəmanlarımız haqqında çox gözəl filmlər çəkilir. Təbii ki, bu işləri bir ildə çatdırmaq çox çətin prosesdir. Bütün işləri qısa müddətdə görmək qeyri-mümkündür. Bu gün hər kəsi öz üzərinə düşən işlərin öhdəsindən layiqincə gəlir.

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramları insanların bilik səviyyəsinin, əhatəsinin genişlənməsində, informasiya ilə təmin olunmasında və ümumilikdə, cəmiyyətin həyatında müsbət istiqamətdə mühüm rol oynayır.

### Ölkəmizdə bu istiqamətdə mühüm addımlar atılır

Nəzərə alsaq ki, Azərbaycan 30 ilə qədər məğlub, daha çox bədbin notlar üzərində elmi-kütləvi, mədəni-maarif proqramlarını hazırlayırdısa, 2020-ci ilin 44 günlük Zəfərlə başa çatan Vətən müharibəsi bu notları müsbətə doğru dəyişildi. Bu gün təhsil proqramlarında Vətən müharibəsi, qazandığımız Böyük Zəfər, Azərbaycan xalqının yeni tarixi, tarixi şəxsiyyətlərimiz haqqında daha geniş məlumatlar əks olunur. Çünki cəbhədə döyüşlər bitsə də, informasiya müharibəsində mübarizə hələ də davam edir və edəcək də.

Hazırda bu istiqamətdə bir sıra mühüm işlər görülür. Bu gün ölkəmizdə bu istiqamətdə mühüm addımlar atılır. Sirr deyil ki, Vətən müharibəsi, qazandığımız zəfərlər barədə daim tədbirlər keçirilir, nəşrlər olur. Yəni istər bədii yaradıcılıq, istər görüntü yaradıcılığı, istərsə də elmi-kütləvi tədbirlərin keçirilməsi baxımından önəmli işlər görülməkdədir. Xüsusən də, orta məktəblərdə şagirdlərin vətənpərvərlik ruhunun ayaqda tutulması, eləcə də digər təhsil müəssisələrində bu işlərin təşkili baxımından xeyli işlər həyata keçirilir. Əlbəttə ki, bu işlərin hamısını birmənalı təqdir etmək olmaz. Yaxud da ki, hamısının üzərindən birmənalı xətt çəkmək olmaz. Ona görə ki, hər kəs bacara bildiyi qədər, bildiyi səviyyədə bu işi görür.

### 30 il ərzində əraziyə dəyən ziyanın hesablanıb dünya ictimaiyyətinə çatdırılması da maarifçilik hərəkatıdır

Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni hesab edir ki, müstəqil və müasir dövlətlərdə bütün sahələri əhatə edən inkişaf proqramları var:

"Qarabağ zəfərindən sonra biz bu istiqamətdə davamlı olaraq elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması üzərində ciddi şəkildə işləməliyik. Qələbə təmin olunub. Burada Prezidentin apardığı siyasət, Azərbaycan xalqının oynadığı rol və bir çox məsələr artıq proqram şəklində universitet və orta məktəblərdə tədris olunmalıdır. Bu proqramların hazırlanmasına çox ciddi və xüsusi önəm verilməlidir. Proqramların hazırlanmasında mütəxəssislərin yanaşması, rəyi mütləq nəzərə alınmalıdır. Biz problemlərə elmi yanaşmağı bacarmalıyıq, eyni zamanda ailmlərin, mədəniyyət xadimlərinin, təhsil ekspertlərinin imkan və potensialından istifadə etməliyik. Hesab edirəm ki, hazırkı mərhələdə hər kəsin üzərinə ciddi işlər düşür. Hər kəs çalışmalıdır ki, bu zəfərdən sonra daxil olduğumuz yeni mərhələdə, post-konfilikt dövründə dövlət və onun siyasətinə, həmrəyliyimizin və birliyimizin güclənməsinə öz ciddi töhvəsini versin. Burada elmi-metodoloji yanaşma gözlənilməli, alimlər, ziyalıların rəyləri mütləq nəzərə alınmalıdır və kompleks yanaşma olmalıdır. Bu proqramların tez bir zamanda hazırlanıb, həyata keçirilməsi hesab edirəm əhəmiyyətli və vacibdir.

"Azərbaycan gələcəyə baxış-2020" inkişaf konsepsiyası var idi. Bu konsepsiyanın vaxtı bitib. Layihə müxtəlif sahələr üzrə həyata keçirildi. Bütün dövlətlərdə olduğu kimi müasir Azərbaycanda milli inkişaf, maarifçilik, elmi-kütləvi, mədəni, təhsil haqqında inkişaf konsepsiya olmalıdır. Bizdə təhsillə bağlı strateji inkişaf konsepsiyası, ölkəmizin elmi inkişafı ilə bağlı müxtəlif dövlət proqramları var. Orada proqramların hansı illərə aid olması aydın göstərilib. Bu məsələlər müxtəlif dövlət qurumları, xüsusi elmi və sosial araşdırma mərkəzləri tərəfindən işlənilib hazırlanır və yekunda da dövlət səviyyəsində qəbul olunur. Bundan sonra dövlət prqramlarının icrası qüvvəyə minir. "Azərbaycan gələcəyə baxış-2020" inkişaf konsepsiyasında 9 bölmə var idi. 9-cu fəsil birbaşa vətəndaş cəmiyyətinin inkişafına həsr olunmuşdu. Müharibədən əvvəlki dövr və torpaqların azad olunması da həmin konsepsiyada əsas istiqamətlərən biri idi. Torpaqlar işğaldan azad olundu, yeni bir istiqamət yarandı ki, Qarabağın dirçəlişi və əhalinin azad olunan torpaqlara böyük qayıdışı istiqamətində də bunlar nəzərə alınmalıdır. Eyni zamanda orada minaların təmizlənməsi, ekoloji tarazlığın bərpa olunması, 30 il ərzində əraziyə dəyən ziyanının hesablanıb dünya ictimaiyyətinə çatdırılması da maarifçilik hərəkatıdır".

Rauf Zeyni hesab edir ki, Ermənistanın Qarabağa vurduğu ziyanla yanaşı, mədəni abidələrin dağıdılması ilə bağlı xüsusi konsepsiya işlənilib hazırlanmalıdır:

"Dünya ictimaiyyətini məlumatlandırmaq lazımdır ki, Ermənistan Qarabağı nə günə qoyub, necə talayıb. Ermənistan vurduğu ziyana görə təzminat ödəməlidir. Elmlə yanaşı, mədəniyyətimizin də inkişafını xüsusi konsepsiya ilə təsdiq etməliyik. Azərbaycan bütün mədəni dəyərlərini dünya ictimaiyyətinə çatdırmalı və imkan daxilində onları qoruyub saxlamalıdır. Artıq bir çox istiqamətlərdə işlər görülüb".

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**